**Dövlət Neft Fondu sərmayə qoyuluşlarını genişləndirir**

Cari ilin yanvar-iyun ayları ərzində Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) büdcə gəlirləri 7 mlrd. 391,9 milyon manat, büdcə xərcləri isə 4 mlrd. 878,1 milyon manat təşkil etmişdir. İlin altı ayı ərzində fondun vəsaitlərinin idarə olunmasından əldə olunan gəlirlər 292,1 milyon manata bərabər olmuşdur. İyulun 1-nə olan məlumata görə, ARDNF-nin aktivləri ilin əvvəlinə nisbətən 9,6% artaraq 32 milyard 666 milyon ABŞ dollarına çatmışdır. Fondun neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri ilin birinci yarısında 7 mlrd. 099,8 milyon manat, mənfəət neftinin və qazın satışından 7 mlrd. 091,4 milyon manat, tranzit gəlirləri 3,8 milyon manat, bonus ödənişləri 1,6 milyon manat, akrhesabı ödənişlər 2,8 milyon manat, xarici sərmayəçilər tərəfindən təhvil verilmiş aktivlərdən 0,2 milyon manat təşkil etmişdir.

*Sosial layihələrin*
*maliyyələşdirilməsi davam etdirilir*

Fondun 2012-ci ilin büdcəsinin icrası çərçivəsində dövlət büdcəsinə 4 mlrd. 592,3 milyon manat vəsait transfert edilmişdir. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 162,5 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 67 milyon manat, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 37 milyon manat vəsait ayrılmışdır. «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsinə 5 milyon manat yönəldilmiş, ilin birinci yarısında Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri isə 14,3 milyon manat olmuşdur.

ARDNF-nin mətbuat xidmətindən verilən məlumata görə, valyuta ehtiyatlarının şaxələndirilməsi məqsədilə 2012-ci ilin iyul ayında 200 milyon Avstraliya dolları alınaraq bu ölkənin dövlət istiqrazlarına investisiya qoyulmuşdur. Həmçinin, Rusiya rubluna da investisiya qoyuluşu nəzərdə tutulur: artıq Rusiyanın yerli bankları ilə əlaqələr qurulmuş, alqı-satqı əməliyyatlarının həyata keçirilməsi üçün hesabların açılmasına dair danışıqlara başlanılmışdır. Hesablar açıldıqdan sonra ilkin mərhələdə Rusiya rublunun alınaraq bu ölkənin yerli banklarında qısamüddətli depozitlərə yerləşdirilməsi nəzərdə tutulur. Növbəti mərhələdə isə Rusiya rublunda olan qiymətli kağızlara da investisiyaların qoyulması planlaşdırılır.

*Daşınmaz əmlaka və*
*qızıla sərmayə*

ARDNF-nin investisiya siyasətinə daxil edilən yeni investisiya alətləri müəyyən edilmişdir. Fond bu il üçün qızıla və daşınmaz əmlaka 5% həcmində investisiya qoya bilər. Artıq ARDNF cari ilin birinci rübündən etibarən qızılın alınmasına başlamışdır və iyulun 1-nə alınan qızılın miqdarı 6 ton 847 kiloqram təşkil etmişdir.

ARDNF Avropa və Asiyanın mərkəzi şəhərlərində yerləşən ofis tipli daşınmaz əmlaka investisiya qoymağı da planlaşdırır. Bu ilin əvvəlindən etibarən daşınmaz əmlak bazarının öyrənilməsi məqsədilə fondun əməkdaşları London, Paris, Roma, Moskva və İstanbula səfər edərək, bir sıra daşınmaz əmlak şirkətləri ilə görüşlər keçirmiş, həmin şəhərlərdə müxtəlif daşınmaz əmlak obyektlərinə baxmışlar. Fonddan verilən məlumatda bildirilir ki, bu məsələ ilə bağlı hüquq məsləhətçiləri ilə birgə səmərəli hüquq-vergi strukturunun qurulması üzərində də iş aparılır. Hazırda Sinqapur, Malayziya və İndoneziya kimi ölkələrdə daşınmaz əmlak obyektləri nəzərdən keçirilir.

ARDNF bu günədək yaradılmış qızıl ehtiyatlarından əlavə gəlir əldə etmək məqsədilə həmin ehtiyatların bir hissəsini beynəlxalq maliyyə bazarlarında fəaliyyət göstərən nüfuzlu banklarda depozitlərdə yerləşdirmişdir. Qiymət dəyişkənliyi riskini minimuma endirmək məqsədilə alınması nəzərdə tutulan qızılın ümumi miqdarının (təqribən 30 ton) mərhələli şəkildə (həftələr üzrə) bərabər bölüşdürməklə 2 il müddətində ARDNF-nin investisiya portfelinə daxil edilməsi planlaşdırılır. Alqı-satqı prosesini həyata keçirmək məqsədilə London Qiymətli Metallar Bazarı İştirakçıları Assosiasiyasının üzvü olan bir neçə tərəfdaş bankda hesablar açılmış, 2012-ci il fevralın 1-dən etibarən həftəlik 25 qızıl külçənin alınmasına başlanılmışdır. Müvəqqəti saxlama yeri kimi isə bu

sahədəki təcrübələr və saxlama xərcləri nəzərə alınaraq, «JP Morgan» bankının London anbarı seçilmişdir. İlin sonunadək əlavə 240 min unsiya (təqribən 7,5 ton) qızılın alınması nəzərdə tutulur.

Rəşad SADIQOV